# Mədəniyyətlərin dialoqunda Şərq-Qərb konteksti




Dünya mədəniyyəti tarixin ilk mərhələlərindən etibarən vahid bir sistem halında gah bu, gah da digər regionlarda baş verən hadisələrin məcmusu kimi mövcud olmuşdur. Samuel Hantinqtonun yazdığı kimi: "Dünya mədəni böhrana düşüb. Qərb mədəniyyəti əsasən iki istiqamətə – islam və konfutsi sivilizasiyalarına qarşı yönəlib. Bu proseslər iqtisadi, siyasi böhranlara və hətta müharibələrə gətirə bilər."

Hazırkı şəraitdə dünyada baş verən sosial-siyasi proseslər bu fikirlərə müəyyən mənada haqq qazandırır. Belə ki, ərəb dünyasındakı hərbi toqquşmalar müxtəlif vasitələrlə yeridilən siyasətin bilavasitə nəticəsidir. Burada başlıca məqsəd iqtisadi mənbələrin ələ keçirilməsi olsa da, milli mədəniyyət faktları da az rol oynamır. Qərbin "sən də mənim kimi düşün!" şüarı və onun Şərqə yeridilməsi açıq müşahidə edilən gerçəklikdir. Belə ki, Qərb ölkələrində "islamofobiya" qorxusunun yaradılması, islamı uzaqlaşdırmaq, müsəlmanların Avropadan qovulması şüarlarla çıxış etmək bugünkü avrosentristlərin məqsədinə çevrilmişdir.

Bəlli olduğu kimi, Şərq və Qərbin mədəniyyəti anlayışları mahiyyət etibarilə kifayət qədər fərqlidir. Mədəniyyətin Avropa mənası "becərmə", "dəyişdirmə", "təbiət məhsulunun insani məhsula çevrilməsi" anlamını verir. Yunan sözü olan "paydeya" da ("pais" - uşaq) "dəyişdirmə" mənasını bildirir. Çin sözü (heroqlif) "ven", "mədəniyyət" sözünün analoji anlamı piktoqrafik olaraq "bəzək", "bəzəkli insan" simvolunu anladır. Bu anlayışın əsas mənası bəzək, gül, ədəbiyyatdır.

Hələ XI-XII əsrlərdə Qərb və Şərq arasında sıx əlaqələr vardı. Çoxsaylı tarixi və arxeoloji tapıntılar bunu təsdiqləyir. Amma belə bir tarixi-mədəni fakt da mövcuddur ki, Şərqin təsiri ilə Fransanın, Almaniyanın, İtaliyanın roman üslublu abidələrində yayılmış heyvan təsvirləri birdən-birə yox olur, beləliklə Qərb mədəniyyətinin digərlərinə müdaxiləsi getdikcə zəifləyir. Orta əsrlərin tarixi nümunəsində Qərb və Şərqin qarşılıqlı təsirini, yaxınlaşma və uzaqlaşma prosesini aydın görmək mümkündür. Başqa sözlə desək, Qərbin roman incəsənəti (XI-XII əsrlər) Şərqlə yaxınlaşma vəziyyətində inkişaf edirdisə, qotika incəsənəti (XIII əsr) onunla əlaqənin kəsildiyini təsdiqləyir.

Əgər Qərb proqressiv, rasional, individual, realist, azadlıqsevər, aktiv xarakterizə olunurdusa, Şərq arxaik, subyektiv, ailə həyatına qapalı, idealist, mistik, passiv şəkildə tanınırdı. Bu əlamətlər artıq bir stereotip kimi XIX əsrin ortalarından ideal mədəniyyət tipləri adlandırılan "qərb" və "şərq" tiplərində möhkəmlənir. Bu dövrdən etibarən qərb və şərq terminləri fəlsəfi və kulturoloji ədəbiyyatda coğrafi anlayışlar deyil, bir-birinə əks mədəniyyət obrazları kimi istifadə olunur. Odur ki, çağdaş dövrdə belə mənəvi tipinə görə Qərbin və Şərqin prinsipial və dəyişməz olaraq bölünməsi mövzusu fəlsəfi, eləcə də kulturoloji baxımdan müqayisəli şəkildə götürülür. Bu isə nəticə etibarilə onların mədəniyyətlərarası dialoqun bərabərhüquqlu üzvü olmalarına maneçilik törədir.

Qəribədir ki, keçmiş zamanlardan Qərb və Şərq haqda təsəvvürlər yalnız coğrafi deyil, siyasi, ideoloji, mədəni münasibətlərdə də mövcud idi və ziddiyyət, qarşıdurma qədim yunanlardan başlayır. Amma yunan mədəniyyətində Qərbin Şərqə əks qoyulması mövcud deyil, yunan sivilizasiyasının Yaxın Şərq xalqları ilə yanaşı Mərkəzi, Orta və Cənub-Şərqi Asiya xalqları ilə də mədəni-iqtisadi əməkdaşlığı vardı. Qədim Yunanıstanın elmi-fəlsəfi fikri, mədəniyyəti Yaxın Şərq və Asiya ölkələrinin mədəniyyətinin təsiri ilə inkişaf edirdi, siyasətçiləri və filosofları isə Qərbi Şərqə deyil, mədəni yunanı milliyyətindən asılı olmayaraq mədəniyyətsiz barbara qarşı qoyurdular. Herodot kimi Ön Asiya tədqiqatçıları "barbarlığa" bənzər bir şey tapsalar da, antik dövrdə barbarlıq Şərq dünyasının atributu deyildi.

Yaxın Şərq sivilizasiyaları orada yaşayan astronomlardan və riyaziyyatçılardan dərs alan yunan filosoflarının tədqiqat predmeti olmuşdur. Şərq barədə Qərbin mədəni antipodu kimi təsəvvür Roma ədəbiyyatında da mövcud deyil. Tarixçilərin və filosofların əsərlərində Şərq barədə qeydlər olduqca azdır, Şərq romalıların düşüncəsində nə mədəni cəhətdən, nə də ərazicə mövcud deyil. Məsələn, Strabon ümumiyyətlə, Şərq anlayışından istifadə etmir.

Orta əsrlərin Şərq barədə təsəvvürü iki istiqamətə ayrıla bilər. Erkən orta əsrlər dövründə Şərq barədə fantastik təsəvvürlər mövcud idi. Məlumat məhdudluğu üzündən Şərq qeyri-adi insanlar və heyvanlarla məskunlaşmış ekzotik dünya kimi təsəvvür olunurdu. J.Le Qoffun fikrincə, "Şərq barədə təsəvvürlərdə nadir ağaclarla, zəngin metallarla dolu adalar, başqa cür həyat, tabunun dağıdılması, kilsənin sərt qaydalarından azadlıq arzuları əks olunurdu."

İkinci istiqamət üçün Avropa və Şərqin intensiv münasibətləri və müsəlman Şərqinin xristian Avropa mədəniyyətinə təsiri xarakterikdir. Avropalı tacirlər mərkəzi və Şərqi Asiyaya daxil olur, beləliklə missionerlər fəaliyyəti aparırdılar. Avropa ölkələri siyasi əlaqələr qurmaq üçün Şərq ölkələrində səfirliklər yaradırdılar, buralara gələn avropalılar öz səyahətləri barədə yazırdılar. Marko Polonun

səyahətindən sonra Uzaq Şərq barədə təsəvvür əldə edən avropalılar ticarət və missioner fəaliyyəti üçün lazımi dərəcədə şərq dillərini öyrənirdilər. Beləliklə, Şərqi daha yaxından tanımaqla onun haqqındakı təsəvvürlərin ekzotik detalları tədricən yoxa çıxırdı.

Orta əsrlərdə Qərbin fərqli mədəni-tarixi tip kimi Şərqə qarşı qoyulması baş vermirdi. Orta əsrlər Avropasının filosofları ərəb-fars filosoflarına başqa bir mədəniyyətin və fəlsəfi ənənənin nümayəndələri kimi deyil, yunan fəlsəfə məktəbinin davamçıları kimi baxırdılar. Məhz bu dövrdə sonrakı düşüncələrə həlledici təsir göstərən Şərq mədəniyyəti və dünya tarixində Şərqin yeri barədə "İnsan gücü və hikməti Şərqdə doğuldu və Qərbdə sona çatmağa başladı" (Otqon Freyzinqenski) kimi baxışlar formalaşır.

Böyük coğrafi kəşflər dövrü Şərq haqda fikir və rəylər üçün keçici bir mərhələ sayılır. Bir tərəfdən qızılla, bahalı daşlarla zəngin Şərq ölkələri barədə məlumatların yer aldığı orta əsrlər qeydlərinin yayılması böyük coğrafi kəşflər üçün stimul oldu. Digər tərəfdən XVI əsrdən etibarən Avropa mədəni inkişaf səviyyəsinə görə Şərqi qabaqlamağa başlayır. Bu, Şərq mədəniyyəti barədə tənqidi fikirlər, onun Avropadan geri qalmasının səbəbləri barədə təhlillərə gətirib çıxardı.

Şərq mədəniyyətinə qarşı neqativ münasibət XVII əsrdə yaranmağa başlayır. Təsəvvürlərin dəyişməsinə təsir edən amillərdən biri Uzaq Şərq ölkələrinin kəşfi ilə bağlı idi. 1514-cü ildə portuqallar ilk dəfə Çin sahillərinə yan aldılar. Sonralar Yaponiya və Koreya kəşf edildi, daha sonralar bura gəlmiş yezuitlər Avropa ictimaiyyətini Uzaq Şərqin coğrafiyası, iqlimi, bitki və heyvan aləmi barədə məlumatlandırdılar.

Şərq mədəniyyətinə münasibətdə maarifçi filosoflar bu mədəniyyətin heyranları (Volter, fransız fiziokratları məktəbi) və onu tənqid edənlər (Monteskye, Russo) olaraq iki hissəyə bölünür. Maarifçilərin tədqiqatlarında, ümumiləşmiş Şərq obrazı demək olar ki, yoxdur. Onlar hind, çin, ərəb mədəniyyətini ayrı-ayrılıqda xarakterizə edirlər. Məhz bu dövrdə Şərq və Qərb mədəniyyətinin sintezinin mümkünlüyü, yəni bərabər dəyərliliyi barədə fikirlər yaranır, Şərq barədə təsəvvürlər dövrün maarifçilərində, Volterdə, sonra Hötedə ruhi kamillik, eləcə də ədalətli dünya nizamı axtarışları ilə bağlı idi. Əhalinin müxtəlif təbəqələrini əhatə edən Şərqə maraq sadəcə ekzotikaya olan həvəsə bənzəyirdi.

Şərq mədəniyyətinin yeni tərzdə anlaşılmasına romantiklərin də əsərlərində rast gələ bilərik. Amma bu da var ki, erkən romantikləri Şərq mədəniyyətinin özünəməxsus dünyası nəinki cəlb etmir, hətta özündən uzaqlaşdırır. Onlar ilk növbədə müsəlman İranla və Ərəb Şərqi ilə daha çox maraqlanırdılar. Sonrakı romantiklər, məsələn, amerikan transdentalistləri R.U.Emerson, Q.Toqo üçün Şərq ayrıca olaraq Qərb sivilizasiyasının pisliklərindən qorunmaq üçün sığınacaq, təxəyyülün azadlığına imkan verən ekzotik dünyadır. İlk dəfə Şərq mədəniyyətinin Qərbdən fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə cəhd edənlər bunlara vahid bir hissənin qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan iki parçası kimi baxırdılar.

XVIII əsrdə şərqşünaslığın müstəqil elm kimi fəaliyyəti və Şərq barədə təsəvvürlərin elmi-nəzəri səviyyədə öyrənilməsi başlayır. Amma onu da qeyd etmək vacibdir ki, XIX-XX əsrlərdə fəlsəfi və kulturoloji fikirdə Şərq barədə təsəvvürlər Şərq-Qərb fəqrliliyi hüdudlarında öyrənilir. Bu zaman qərbin inkişaf xətti əsas götürülür, şərqin inkişafı isə qərblə müqayisədə nəzərdən keçirilirdi.

Bu sayaq universalist yanaşma çərçivəsində vurğulanır ki, Şərq xalqları heç vaxt tarixə (Avropanın anlamında) malik olmayıblar, buna görə də Avropa tarixçilərinin tarixi təhlil metodları Şərq tarixinə tətbiq edilə bilməzdi. Odur ki, həmin universalist yanaşmaya tənqidi münasibət XX əsrdə O.Şpenqlerin «Avropanın qürubu» əsəri ilə açıq şəkildə bildirildi. XX əsrin sonlarına yaxın universalizmin tənqidi dünyanın Şərqə və Qərbə bölünməsinin tənqidinə yönəlir və A.Toynbinin, S.Hantinqtonun, D.Frolun, D.Stidmanın əsərlərində özünü göstərir. Amma burada tənqid ilə yanaşı romantik və inqilabi yanaşma da mövcud idi. Belə ki, Qərbin və Şərqin mədəni antipod olmaması fikri, onların sintezinin vacibliyi ideyası, A.Şveytserin etik konsepsiyası Şərq və Qərb düşüncəsinin kəsişməsində hər iki mədəniyyətdə çatışmazlıqları aradan götürmək cəhdləri XX əsrin 40-cı illərində F.Nortropun "Şərqin və Qərbin görüşməsi" ideyasının tədricən həyat gücü qazanması faktı bunun danılmaz sübutudur.

Osvald Şpenqlerin "Avropanın qürubu" əsərində göstərildiyi kimi, Qərb mədəniyyəti böhran mərhələsinə qədəm qoymuşdur, onun gələcəyi təhlükə altındadır. Qərbdə getdikcə daha çox yayılan ucuz və bayağı mədəniyyət nümunələri: kütləvi mədəniyyət, şou biznes, feminizasiya meylləri, bulvar ədəbiyyatı (sarı ədəbiyyat) və sair insanların psixikasına təsir göstərir, fərdiyyətçilik həyat normasına çevrilir. Qərb ölkələrində əhali artımı digər irqlərin və mühacirlərin hesabına nizamlanır, yerlilər və gəlmələr arasında sosial bərabərsizlik və ziddiyyətlər yaranır, əhalinin milli tərkibi ciddi deformasiyalara məruz qalır, qara və sarı irqin xüsusi çəkisi artır. Avropada ərəblərin, türklərin, ümumiyyətlə, Afrikadan və Asiyadan gələnlərin, ABŞ-da isə çinlilərin və ispandillilərin sayı əvvəlki dövrlərə nisbətdə müqayisə olunmaz dərəcədə çoxalmaqdadır. Bütün bunlar Avropa mədəniyyətinin özülünə təsir göstərib onu laxladır, yerində isə surroqat tipli yeni bir mədəniyyət yaradır ki, həmin prosesin



nəticəsi olaraq, bəşəriyyət ümumi, planetar bir mədəniyyətə doğru üz tutur. Getdikcə daha inamla labüdləşən bu mədəniyyətdə kimin aparıcı rol oynayacağı hələ bilinmir. Əgər sözü gedən prosesdə aparıcı rol Qərb mədəniyyətinə məxsusdusa, o, artıq əvvəlki Qərb mədəniyyəti yox, müxtəlif xalqlar, o cümlədən qoca Avropaya axışan mühacirlər tərəfindən yeniləşdirilmiş, mahiyyətcə zənginləşdirilmiş yeni tipli mədəniyyət olacaq. Çünki çağdaş dövrdə müşahidə edilən yenilik prosesləri təkcə Qərbə məxsus deyil. Müşahidələrdən və elmi-nəzəri araşdırmalardan əldə edilən qənaətlərə görə, ispandilli mədəniyyət, islam mədəniyyəti, Hind-Çin regionunun, slavyan xalqlarının mədəniyyəti, eləcə də, yapon mədəniyyəti çağdaş dövrümüzdə, ikinci onilliyini bitirdiyimiz XXI əsrdə güclü inkişaf perspektiklərinə malikdir. ❖

**Aynur İsrafilova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru